# KİTABIN TARİXİ YOLU VƏ HEYDƏR ƏLİYEV İRSİNDƏ ONUN YERİ

***Aygün Məlik qızı Məlikova,***

*AMEA Mərkəzi Elmi Kitabxana*
*Heydər Əliyev və Azərbaycan*
*dövlətçiliyi şöbəsinin baş kitabxanaçısı*
*Yasamal rayonu, Hüseyn Cavid pros.129*
*aygun6474@gmail.com*

***Aytən İsmayıl qızı Babayeva***

*AMEA Mərkəzi Elmi Kitabxana*
*Heydər Əliyev və Azərbaycan*
*dövlətçiliyi şöbəsinin baş kitabxanaçısı*
*Yasamal rayonu, Hüseyn Cavid pros.129*
*babayeva.ayten@outlook.com*

***Açar sözlər:*** *Heydər Əliyev, mədəniyyət, elm, kitab*
***Ключевые слова:*** *Гейдар Алиев, культура, наука, книги*
***Keywords:*** *Heydar Aliyev, culture, science, books*

**Xülasə:** Bu tesizdə kitabların hələ eramızdan əvvəl cəmiyyətin inkişafındakı rolundan, görkəmli filosofların kitab haqqında söylədikləri fikirlərdən və Ulu öndər Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanda milli-mənəvi dəyərlərin qorunmasında, kitaba, kitabların nəşrinə göstərdiyi böyük qayğı və diqqətdən bəhs olunur.

**Резюме:** В данном тезисе рассказывается о роли книг в развитии общества ещё до нашей эры, о высказываниях выдающихся философов о книгах, а также о большой заботе и внимании, которые великий лидер Гейдар Алиев проявлял к книгам и их изданию в период своего правления, сыграв важную роль в сохранении национальных и духовных ценностей в Азербайджане.

**Summary:** This thesis discusses the role of books in the development of society since before the Common Era, the views of prominent philosophers on books, as well as the great care and attention shown by the National Leader Heydar Aliyev to books and their publication during his leadership, contributing significantly to the preservation of national and spiritual values in Azerbaijan.

Kitablar ən qədim dövrlərdən bəri mövcud olub, həyatımızın hər sahəsində ehtiyac duyduğumuz zəngin bilik mənbəyidir. Kitabların tarixi mədəniyyətin tarixi qədər qədimdir. Eramızdan əvvəl mövcud olan kitablar müxtəlif materiallardan hazırlansa da, onların əsas məqsədi və ideyası dəyişməz qalmışdır. Kitablar daşdan, dəridən başlayaraq, taxta lövhələrdən, papirusdan və nəhayət müasir kağızlara qədər böyük bir təkamül yolu keçmişdir. Dünyanın böyük mütəfəkkirləri, elm və mədəniyyət xadimləri bəşər mədəniyyətinin inkişafında kitabın çox yüksək əhəmiyyətə malik olduğunu söyləmişlər.

XIII-XIV əsrlərdə yaşamış Azərbaycan şairi və filosofu Hümam Təbrizi yazırdı: "İsgəndərin zülmətdə tapa bilmədiyini ağ kağız üzərində qara mürəkkəblə yazılmış kitablarda tapmaq olar". Yunan filosofu Sokrat deyirdi: "Mütaliə bir cəmiyyətin gündəlik vərdişinə çevrilsə, o cəmiyyət xoşbəxt olar".

Kitab - insanların fikir dünyasını bir araya gətirən, könüllər arasında mənəvi bağlar quran əvəzsiz ünsiyyət vasitəsidir. Kitab bəşəriyyətin yaratmış olduğu fikir və ideyaların, nəzəriyyələrin, elmi kəşflərin uzun bir müddət üçün insanlara çatdırmağın əsas vasitəsidir. Ümummilli lider Heydər Əliyev hər zaman Azərbaycan kitabına böyük dəyər vermiş, onun qorunmasına və inkişafına xüsusi qayğı ilə yanaşaraq mühüm töhfələr vermişdir.

Müstəqillik illərində Heydər Əliyev xalqımızın görkəmli yazıçılarının, şairlərinin maddi vəziyyətinin və cəmiyyətdə tutduğu mövqelərinin yaxşılaşdırılması, yaradıcı insanların şəxsiyyətinin yüksəldilməsi üçün böyük tədbirlər həyata keçirdi [1, s.76].

Bu tədbirlərdən 1996-cı ildə M.Füzuli adına beynəlxalq mükafatın təsis edilməsini, 1997-ci ildə "Azərbaycan yazıçılarına dövlət qayğısını artırmaq haqqında Prezident fərmanının imzalanmasını nümunə göstərmək olar. Belə ki, Azərbaycan", "Qobustan", "Ulduz", "Литературный Азербайджан" jurnalının və "Ədəbiyyat" qəzetinin nəşrinin dövlət hesabına həyata keçirilməsi Ulu öndərin Azərbaycan kitab mədəniyyətinin inkişafına böyük qayğısının təcəssümüdür.

Ulu öndər qeyd edir ki, 1997-ci il aprelin 20-də "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi haqqında fərman imzaladım. Fərmanın ən böyük əhəmiyyəti ondan ibarətdir ki, o "Kitabi Dədə Qorqud" dastanının ən azı 1300 il yaşı olduğunu dünyaya nümayiş etdirdi. Həmin fərman verilən gündən keçən müddət ərzində bir çox işlər uğurla həyata keçirilmiş, sanballı kitablar çap olunmuşdur. Bu nəşrlər içərisində ən önəmlisinin "Dədə Qorqud" ensiklopediyası olduğunu desəm, zənnimcə yanılmaram [1, s.43].

Heydər Əliyev milli-mənəvi dəyərlərin qorunmasında kitabın rolunu yüksək qiymətləndirirdi. Onun təşəbbüsü ilə klassik Azərbaycan ədəbiyyatının, eləcə də tarix və mədəniyyətimizi əks etdirən kitabların nəşri geniş vüsət aldı. "Kitab mədəniyyəti-xalqın mədəni səviyyəsinin göstəricisidir. "Bu fikir Heydər Əliyevin kitab və mədəniyyətə verdiyi yüksək dəyəri əks etdirir.

Ümummilli lider dəfələrlə qeyd edib ki, kitab insanın düşüncəsini, dünyagörüşünü formalaşdıran əsas vasitədir. Ulu öndərin rəhbərliyi dövründə təhsil sahəsində həyata keçirilən islahatlar nəticəsində dərsliklərin keyfiyyəti artırıldı, yeni təhsil vasitələri çap olundu. Bu da kitab mədəniyyətinin inkişafına güclü təkan verdi. Kitaba, kitab nəşrinə böyük önəm verən Heydər Əliyev Milli kitabxananı ziyarət edərkən nitqlərinin birində kitabxana işi haqqında "Kitab nəşri hər bir ölkənin, xalqın mədəniyyətində, ümummiyyətlə, mənəvi ictimai həyatında çox görkəmli yer tutur" demişdir. Elmimizlə, mədəniyyətimizlə, mənəviyyatımızla çox ehtiyatlı, çox diqqətli davranmaq lazımdır [2, s.125].

Ulu öndər Heydər Əliyev Azərbaycanın mədəni abidəsi, milli sərvəti olan "Kitabi-Dədə Qorqud dastanına verdiyi dəyər zirvə təşkil edir və bu mötəbər abidəni belə xarakterizə edir. "Azərbaycan xalqının tarixinin, etnik yaddaşının, arxaik təfəkkürünün güzgüsü olan "Kitabi-Dədə Qorqud" nitqimizin, dilimizin, mənəviyyatımızın nəğməsi kimi də böyük əhəmiyyət kəsb edir. Kitab elə bir qüdrətə malikdir ki, özündən sonra gələn söz sənətimiz, ozan-aşıq sənətimiz, yazılı ədəbiyyatımız ondan kənarda qala bilməmişdir. "Kitabi-Dədə Qorqud" ensiklopediyasının nəşri bu ali məqsədə xidmət edən bir amil olacaqdır. "Kitabi-Dədə Qorqud" bizim milli sərvətimizdir, bu kitab gənclərə vətənpərvərlik ruhu aşılayır və onları tarixi yaddaşla böyüdür.

"Kitab - elmin, biliklərin, mənəviyyatın və mədəniyyətin daşıyıcısıdır". Bu fikir ilə Heydər Əliyev kitabın yalnız informasiya qaynağı deyil, həm də insanı kamilliyə aparan bir yol olduğunu bildirir. Kitab vasitəsilə insanlar öz biliklərini artırır, milli-mənəvi dəyərlərlə tanış olur və cəmiyyətin inkişafında fəal iştirakçıya çevrilir. Kitab oxumaq insanı həm mənəvi, həm də intellektual baxımdan inkişaf etdirir, insanın xarakterini, əxlaqını və dünyagörüşünü formalaşdırır. Kitablar elmi və praktiki məlumatların əsas mənbəyidir. Kitab insan həyatında ən qiymətli yol yoldaşı, ən səssiz müəllim və ən sadiq dostudur.

Heydər Əliyev kitabı təkcə informasiya mənbəyi kimi deyil, həm də milli ruhun, mənəvi dəyərlərin qoruyucusu kimi dəyərləndirir. Ulu öndərin "Kitabxanalar xalqın milli sərvətidir" fikri onun

kitabxanaların və ümumilikdə mədəniyyətin inkişafına verdiyi yüksək dəyərin ifadəsidir. Heydər Əliyev həm də oxumağı sevən və daim öyrənən bir lider idi. Onun şəxsi həyatında da kitabın böyük rolu olmuşdur. Gənclərə daim tövsiyə edirdi ki, kitab oxusunlar, öz üzərlərində işləsinlər və elmə can atsınlar. Çünki bilikli və tərbiyəli gənc, ölkənin sabahını quracaq əsas qüvvədir. Biz gənclər onun göstərdiyi yolu davam etdirməli, kitabı həyatımızın ayrılmaz hissəsinə çevirməliyik.

**Ədəbiyyat**


1. *Süleymanov R*. Ulu Öndər Heydər Əliyev və Azərbaycanın kitab mədəniyyəti. Bakı, 2023. - 362 s.
2. *Süleymanov R*. Heydər Əliyevin kitab və kitab nəşri haqqında müdrik fikirləri. Bakı, 2018. – 142 s.
3. http://www.anl.az/down/meqale/medeniyyet/2020/aprel/708161.htm